# İgidliyi ilə xatırlananlar

**Azərbaycanda vətənin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhid ailələrinə dövlət tərəfindən hər zaman böyük diqqət və qayğı göstərilir. Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov özü və əməkdaşları şəhid məzarlarını müntəzəm ziyarət edir, ailə üzvlərinin problemləri ilə yaxından maraqlanır. RİH-in başçısı Sevindik Hətəmov, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidin yaxınları və məktəblilər Vətən müharibəsi şəhidi Əliyev Rəşad Əmralı oğlunun şəhadətinin ildönümü ilə əlaqədar təşkil edilmiş il mərasimində iştirak etdilər.**




Mərasim iştirakçıları şəhidimizin məzarını ziyarət edib, önünə gül dəstələri düzüb ruhuna dualar oxudular. Tədbir iştirakçıları şəhid kapitan Əliyev Rəşad Əmralı oğlunun adının əbədiləşdirilməsi məqsədilə onun xatirəsinə inşa edilmiş bulaq-abidə kompleksinin açılışını da etdilər.

Anım günündə çıxış edən rayon icra hakimiyyətinin başçısı Vətən müharibəsində qazanılan zəfərimizdə, alınan torpaqlarımızın hər qarışında neçə-neçə şəhidimizin qanının, hər birinin fərqli qəhrəmanlıq salnaməsinin olduğunu qeyd etdi. Şəhidimizin ailə üzvlərinə dərin hüznlə başsağlığı verən RİH başçısı Sevindik Hətəmov Rəşad Əliyevin timsalında bütün şəhidlərimizə Allahdan rəhmət diləyərək, onların daim ürəklərdə yaşayacağını bildirdi. Anım mərasimi şəhidin doğulub boya-başa çatdığı ata ocağında davam etdirildi.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Əliyev Rəşad Əmralı oğlu ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Ə.ABDULOV ,**
**"Respublika".**

Respublika.- 2021.- 14 noyabr.- S.5.